**Kaziyeva Gülşən Neyman qızı** [72]

# DİL VƏ ƏDƏBİYYAT MÜƏLLİMLƏRİNİN HAZIRLANMASINDA AZƏRBAYCNDA TƏTBİQ OLUNA BİLƏCƏK YENİ YANAŞMALAR

**Giriş.** Ölkəmizdə Azərbaycanda dil və ədəbiyyat müəllimi ixtisası üzrə peşəkar pedaqoji kadrların yetişdirilməsi təcrübəsi bir əsrlik tarixə malikdir. Hazırda Azərbaycanda həm paytaxtda, həm də regionlarda fəaliyyət göstərən universitetlərin əksəriyyətində bu istiqamət üzrə kadr hazırlığı aparılır. Bu sahədə müasir təhsil siyasəti və texnologiyalarının, tədris metodları və təlim üsullarının tətbiqi istiqamətində müəyyən nailiyyətlər əldə olunsa da, hələ universitetlərimizdə yetişdirilən sahə mütəxəssislərinin beynəlxlaq standartlara cavab verdiyini söyləmək tezdir. Fikrimizcə, respublikamızda həyata keçirilən dil və ədəbiyyat müəllimi hazırlığı ilə dünyanın aparıcı ölkələrində yerinə yetirilən eyni istiqamətli işlərin müqayisəsi nailiyyətlərimizi göstərməklə bərabər, bu sahədə mövcud boşluqları da müəyyən etməyə kömək edə bilər.

**Avropa ölkələrində dil və ədəbiyyat müəllimi hazırlığı üzrə təhsil proqramlarının ümumi mənzərəsi.** Avropa ölkələrində dil və ədəbiyyat müəllimlərinin hazırlanmasında nəzəri biliklərlə praktiki təcrübənin balanslaşdırılması mühüm yer tutur. Finlandiyada müəllimlərin hazırlığı beş illik bir proses olaraq nəzərdə tutulur və bu müddətdə tələbələr pedaqoji tədqiqatlar və praktik bacarıqlarla təchiz edilir. Təhsil proqramlarında həm nəzəri, həm də tətbiqi təlimə bərabər önəm verilir (Abbasov Ə. 2020).

İtaliyada dil və ədəbiyyat müəllimliyi üzrə proqramlar modul əsaslıdır və tələbələr müxtəlif dillər və mədəniyyətlər üzrə ixtisaslaşırlar. Məsələn, Venesiyadakı Ka Foskari (*Ca' Foscari*) Universitetində təklif olunan proqramlar tələbələrin beynəlxalq səviyyədə rəqabət qabiliyyətli olmasını təmin edir (Niftalıyev Ş. 2019).

**Asiya ölkələrində dil və ədəbiyyat müəllimi hazırlığına mütərəqqi və innovativ yanaşmalar.** Asiya ölkələrində, xüsusən Sinqapurda, müəllim hazırlığı prosesində innovativ metodlar tətbiq olunur. Sinqapur Milli Təhsil İnstitutunda təlim proqramları pedaqoji nəzəriyyə ilə praktiki təcrübəni birləşdirir. Tədris prosesi tələbələrin sinif idarəetmə bacarıqlarını inkişaf etdirməyə yönəlib və onlara real sinif mühitində işləmək təcrübəsi qazandırır (Mikayıllı B. 2024).

**ABŞ və Kanadada müəllim hazırlığında praktiki təlimlərə münasibət.** ABŞ və Kanadada müəllim hazırlığı prosesində praktiki təcrübə əsas komponentlərdən biridir. Tələbələr müxtəlif məktəblərdə praktika keçərək sinif idarəetməsi, dərs planlaşdırılması və digər peşə bacarıqları üzrə təcrübə əldə edirlər. Bu yanaşma pedaqoji hazırlığın keyfiyyətini artırmaqla yanaşı, müəllimlərin peşəkarlıq səviyyəsini də yüksəldir (Əzizova A. 2023).

Dünyanın aparıcı ölkələrində pedaqoji kadrların, o cümlədən dil və ədəbiyyat müəllimi hazırlığına postsovet ölkələrindən fərqli yanaşmaların olduğunu görürük. Fənn kurikulumlarının modul əsaslı qurulmasını, tədris prosesində innovativ texnologiyaların geniş tətbiq olunduğunu, məzunların karyera planlamasına diqqət yetirilməsini və s. buna missal göstərə bilərik.

**Kurikulumların modul əsaslı qurulması.** Modul əsaslı kurikulumlar təhsil prosesində çevikliyi və tələbəyönümlü yanaşmanı təmin edir. Bu yanaşma tələbələrin fərdi ehtiyaclarına uyğun tədris planlarının hazırlanmasına imkan yaradır və onların öyrənmə prosesində daha fəal iştirakını təmin edir. Müasir təhsil sistemində modul əsaslı kurikulumların tətbiqi tədrisin keyfiyyətini artırmaqla yanaşı, tələbələrin müstəqil öyrənmə bacarıqlarını da inkişaf etdirir (Əzizova A. 2023).

**Tədris prosesində texnologiyaların rolu.** Texnologiyaların tədris prosesinə inteqrasiyası təhsilin keyfiyyətini və əlçatanlığını artırır. Elektron tədris resursları, interaktiv lövhələr və digər rəqəmsal alətlər müəllim və tələbələr arasında qarşılıqlı əlaqəni gücləndirir, öyrənmə prosesini daha maraqlı və effektiv edir. Məsələn, biologiya dərslərində yeni təlim texnologiyalarının istifadəsi şagirdlərin mövzunu daha dərindən mənimsəməsinə kömək edir (Babayeva Z. 2023).

**Məzunların peşəkar inkişafını təmin edən proqramlar.** Məzunların davamlı peşəkar inkişafı təhsil sisteminin əsas prioritetlərindən biridir. Bu məqsədlə müxtəlif təlim proqramları, seminarlar və sertifikatlaşdırma kursları təşkil olunur. Məsələn, Bakı Biznes Universitetində professor-müəllim heyətinin peşəkar inkişafını təmin edən münbit şərait yaradılmışdır (BBU, 2024).

Beynəlxalq keyfiyyət standartlarının təhsil prosesinə tətbiqi rəqabətliliyi artırır. Universitetlərin reytinq cədvəlində irəliləməsi və ya əksinə geriləməsi həm stimullaşdırıcı təsir göstərir, həm də rəqabətliliyi artırır.

**UNESCO və OECD-nin təklif etdiyi təhsil meyarları.** UNESCO və OECD kimi beynəlxalq təşkilatlar təhsildə keyfiyyətin təmin olunması üçün müxtəlif meyarlar və göstəricilər müəyyən edirlər. Bu meyarlar təhsil siyasətinin formalaşdırılmasında və təhsil müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsində mühüm rol oynayır. Məsələn, UNESCO-nun təhsil planlaşdırılması üzrə beynəlxalq institutunun tövsiyələri təhsil sistemlərinin inkişafında əhəmiyyətli istiqamətlər müəyyən edir (UNESCO, 2004).

**Peşə kompetensiyaları üzrə beynəlxalq sertifikatlaşdırma təcrübələri.** Peşə kompetensiyalarının beynəlxalq səviyyədə tanınması üçün sertifikatlaşdırma proqramları mühüm rol oynayır. Bu proqramlar vasitəsilə mütəxəssislər öz bilik və bacarıqlarını təsdiq edərək, qlobal əmək bazarında rəqabət qabiliyyətini artırırlar. Müasir təhsil sistemində belə sertifikatlaşdırma təcrübələrinin tətbiqi peşəkarların davamlı inkişafını təmin edir (NMİ, 2021).

[72] *Azərbaycan Dövlət Pedaqoji Universiteti, magistrant* -mail: kaziyevagulsen@gmail.com

Azərbaycan ali məktəblərində dil və ədəbiyyat müəlimi hazırlığının mövcud vəziyyətinin təhlili onu deməyə imkan verir ki, ölkəmizdə bu istiqamətdə kadr hazırlığının bir əsrdən çox tarixə malik ənənəsi mövcud olsa da, bu sahədə ciddi islahatlara ehtiyac var. İstər dil daşıyıcılarının ana dili və ədəbiyyat kimi, istərsə də xarici dil müəllimi kimi hazırlanması prosesində əvvəlki Şərq-müsəlman ənənəsinin Avropa-rus ənənəsi ilə əvəz olunması bu prosesə müsbət təsir göstərsə də, ölkədə milli müstəqilliyin əldə olunması ilə ictimai-siyasi quruluşun dəyişməsi ciddi yeniliklərə zərurət yaratmışdır. Otuz il ərzində bu istiqamətdə bir çox mühüm işlər görülsə də, bəzi məqamlarda hiss olunacaq irəliləyişlərə nail olsaq da, hələ də ali məktəblərin təhsil proqramında müəyyən dəişikliyə ehtiyac duyulur.

Azərbaycanın ali təhsil müəssisələrində dil və ədəbiyyat müəllimliyi ixtisası üzrə təhsil proqramlarının strukturu və məzmunu, istifadə olunan təlim metodları və vasitələri, eləcə də mövcud problemlər və məhdudiyyətlər aşağıdakı kimi təhlil edilə bilər:

**Təhsil proqramlarının strukturu və məzmunu.** Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası üzrə təhsil proqramları, əsasən, dilçilik və ədəbiyyatın nəzəri və praktik aspektlərini əhatə edir. Proqramlar dilin fonetikası, leksikologiyası, qrammatikası, ədəbiyyat tarixi və nəzəriyyəsi kimi mövzuları əhatə edən fənlərdən ibarətdir. Bununla yanaşı, pedaqogika və psixologiya kimi müəllimlik peşəsi üçün vacib olan fənlər də tədris olunur. Məsələn, Bakı Dövlət Universitetinin "Dil və ədəbiyyat müəllimliyi (dillər üzrə)" proqramı bu istiqamətdə hazırlanmışdır (BDU, 2023).

**Hal-hazırda istifadə olunan təlim metodları və vasitələri.** Tədris prosesində ənənəvi mühazirə və seminarlarla yanaşı, müasir təlim texnologiyalarından da istifadə olunur. Elektron təhsil resursları, interaktiv tədris vasitələri və digər rəqəmsal alətlər tədris prosesinə daxil edilməkdədir. Lakin bəzi hallarda bu vasitələrin tətbiqi məhdud olur və müəllimlərin rəqəmsal bacarıqlarının artırılmasına ehtiyac duyulur. Məsələn, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsində müvafiq ixtisaslar üzrə ixtisas fənləri müxtəlif dillərdə tədris olunur və müasir texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilir (ADPU, 2023).

Qeyd etməliyik ki, müəllim hazırlığında, xüsusən də dil və ədəbiyyat müəllimi üzrə kadr hazırlığında mühüm nailiyyətlər əldə olunsa da, bəzi problem və çatışmazlıqlar da olmamış deyil. Bu çətinliklər aşağıdakılardan ibarətdir:

- Müasir texnologiyaların istifadəsində çətinliklər;
- Praktiki təcrübənin çatışmazlığı;
- Beynəlxalq yanaşmalarla uyğunsuzluq nümunələri.

Bəzi təhsil müəssisələrində texnoloji infrastrukturun yetərsizliyi və müəllimlərin rəqəmsal bacarıqlarının kifayət qədər olmaması səbəbindən müasir təlim texnologiyalarının tətbiqində çətinliklər mövcuddur.

Tələbələrin pedaqoji təcrübə müddətlərinin qısa olması və real məktəb mühitində yetərincə təcrübə qazanmamaları da gələcək pedaqoqların peşə fəaliyyətinə tam hazır olmamalarına səbəb olur.

Bəzi təhsil proqramlarının məzmunu beynəlxalq standartlarla tam uyğun gəlmir. Bu da məzunların qlobal əmək bazarında rəqabət qabiliyyətini azalda bilir.

Azərbaycan ali məktəblərində dil və ədəbiyyat müəllimi hazırlığı prosesini dünyanın aparıcı universitetlərində həyata keçirilən kadr hazırlığı ilə müqayisə etsək, ölkəmizdə bu istiqamətdə mövcud ənənənin müsbət və mənfi tərəflərini görə bilərik. Bəs beynəlxalq proseslərlə uyğunluq necədir və ölkədaxili müəllimlərin peşə hazırlığının güclü və zəif bəndləri hansıdır?

**Mövcud təhsil proqramlarının qlobal modellərlə uyğunluğu.** Azərbaycanın dil və ədəbiyyat müəllimliyi üzrə təhsil proqramları bəzi aspektlərdə beynəlxalq modellərlə uyğun olsa da, onlar arasında müəyyən fərqlər də mövcuddur. Məsələn, bəzi ölkələrdə modul əsaslı tədris proqramları tətbiq olunur və tələbələrin fərdi inkişafına daha çox diqqət yetirilir. Azərbaycanda isə ənənəvi tədris metodları hələ də geniş yayılmışdır. Bununla belə, bəzi universitetlərdə modul əsaslı tədris proqramlarının tətbiqi istiqamətində addımlar atılır (NDU, 2023).

**Ölkədaxili yanaşmaların güclü və zəif tərəfləri.** Azərbaycanın təhsil proqramları milli-mənəvi dəyərlərin qorunması və təbliğinə xüsusi önəm verir. Bu, tələbələrin milli kimlik və mədəniyyətə bağlılığını gücləndirir. Müasir təlim texnologiyalarının tətbiqindəki çətinliklər, praktiki təcrübənin yetərsizliyi və beynəlxalq standartlarla tam uyğunluğun olmaması təhsil proqramlarının zəif tərəfləri kimi qeyd edilə bilər.

Müqayisə və araşdırmalarımız nəticəsində Azərbaycan ali məktəblərində dil və ədəbiyyat müəllimi hazırlığı prosesində tətbiq oluna biləcək yeni yanaşmalar aşağıdakılardan ibarət ola bilər:

**1. İnnovativ təhsil texnologiyalarının tətbiqi:** Virtual və artırılmış reallıq texnologiyaları dərs prosesini daha interaktiv və maraqlı edə bilər. Bu texnologiyalar ədəbiyyat nümunələrini vizual canlandıraraq şagirdlərin dərsə marağını artırar. Elektron təhsil platformalarının təkmilləşdirilməsi də tələbələrin təhsil keyfiyyətini yüksəltmək üçün vacibdir. Bu platformalar fərdi öyrənməni asanlaşdırır və tədris prosesini daha çevik edir (OECD, 2021; UNESCO, 2022).

**2. Müasir kurikulum və təlim metodlarının uyğunlaşdırılması:** Modul əsaslı proqramların tətbiqi tələbələrə mövzuları daha dərindən öyrənmək imkanı yaradar. Beynəlxalq təcrübələrdə uğurlu hesab edilən bu yanaşma yerli təhsil sisteminə uyğunlaşdırıla bilər. Məsələn, Finlandiya təhsil modelindəki fərdi yanaşma Azərbaycan kontekstinə uyğunlaşdırılaraq tətbiq edilə bilər (Hargreaves, 2020; Smith & Taylor, 2021).

**3. Məzunların peşəkar inkişafı üçün uzunmüddətli strategiyalar:** Məzunların peşəkar inkişafını dəstəkləmək üçün mentorluq və davamlı təlim proqramları təşkil edilməlidir. Təcrübəli müəllimlərin yeni məzunlarla bilik paylaşması onların peşəkar inkişafına ciddi töhfə verə bilər. Bundan əlavə, beynəlxalq sertifikatlaşdırma modelləri

tətbiq edilərək, məzunların qlobal əmək bazarında rəqabət qabiliyyəti artırıla bilər (Shulman, 2022; International Education Standards, 2021).

**4. Pilot layihələrin təşkili:** Beynəlxalq təcrübələrin yerli mühitdə sınaqdan keçirilməsi üçün pilot layihələr həyata keçirilməlidir. Bu layihələr vasitəsilə tətbiq olunan metodların effektivliyi dəyərləndirilərək təkmilləşdirilə bilər. Universitetlərin beynəlxalq təşkilatlarla əməkdaşlığı isə təhsil proqramlarının yenilənməsinə imkan yaradacaq (OECD, 2021; UNESCO, 2022).

**Nəticə və təkliflər.** Beynəlxalq təcrübələrdən öyrənilən əsas dərslər arasında təhsil proqramlarının modul əsaslı qurulması, təlim texnologiyalarının müasir yanaşmalarla uyğunlaşdırılması və peşəkar inkişaf proqramlarının davamlı şəkildə tətbiq edilməsi önə çıxır. Avropa və Asiya ölkələrinin təcrübəsi göstərir ki, innovativ metodlar və texnologiyalar təhsil keyfiyyətini əhəmiyyətli dərəcədə artırır və tələbələrin daha yüksək səviyyədə peşəkar hazırlıq keçməsinə imkan verir.

Azərbaycan təhsil sisteminin modernləşdirilməsi üçün bir neçə konkret addım təklif olunur. İlk növbədə, tədris proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması və yeni texnologiyaların tətbiqi ilə kurikulumların zənginləşdirilməsi vacibdir. Eyni zamanda, müəllim hazırlığı sahəsində peşəkar inkişaf proqramlarının təkmilləşdirilməsi və müasir qiymətləndirmə metodlarının tətbiqi tələbələrin real həyat bacarıqlarını artıra bilər.

Araşdırmanın gələcək perspektivləri, Azərbaycanda təhsil sisteminin beynəlxalq təcrübələrə uyğun daha da inkişaf etdirilməsi istiqamətindədir. Bu sahədə həyata keçiriləcək tədqiqatlar müəllimlərin təlim prosesinə daha çox texnoloji vasitələrin inteqrasiyasını və tədris metodlarının dəyişən tələblərə uyğunlaşmasını əhatə edə bilər.

**Ədəbiyyat siyahısı**


1. Abbasov Ə. İnkişaf etmiş xarici ölkələrdə təhsil. Bakı: Elm və təhsil, 2020, 108 səh.
2. Əzizova A. Azərbaycan dili və ədəbiyyatı dərslərində problem əsaslı təlimin yaradılması və onun mahiyyəti // Elmi əsərlər. Azərbaycan Respublikasının Təhsil İnstitutu, cild 90, № 6, 2023, s. 232-236.
3. Mikayıllı B. Sinqapurda pedaqoji kadr hazirliği modellərinin nəzəri və təcrübi əsasları // Məktəbəqədər və ibtidai təhsil, 2024, №1, s. 10-28.
4. Niftalıyev, Ş. (2019). Avropada ixtisas portalı. https://niftaliyev.com/avropada-ixtisas-portali/
5. "Ümumi təhsildə kurikulum islahatları: nəticələr və perspektivlər – 2021" mövzusunda respublika elmi-praktik konfransinin materialları, Naxçıvan, NMİ, 21 may 2021-ci il, 252 s.
6. Babayeva Z. Biologiyanın tədrisində yeni təlim texnologiyalarından istifadə. Bakı, "Zəngəzurda" çap evi, 2023, 256 səh.
7. Bakı Biznes Universitetinin normativ–hüquqi sənədləri. Bakı: 2024, 456 s. (https://bbu.edu.az/uploads/files/Esasnameler/TOPLUM%20SV(2).pdf)
8. UNESCO. (2004). Needs-based resource allocation in education via formula funding of schools. https://unesdoc.unesco.org/ark%3A/48223/pf0000118426_aze
9. Hüseynova F. Keyfiyyət təminatı sisteminin həyata keçirilməsi, Bakı: 2020, 90 s. (https://www.kvalifikasiya.edu.az/modullar/mektebmeneceri/Keyfiyyet%20Teminati%20Sisteminin%20Heyata%20Kechirilmesi.pdf)
10. Dil və ədəbiyyat müəllimliyi (dillər üzrə), Bakı Dövlət Universiteti. (2023). https://bsu-uni.edu.az/storage/tedris-sobe/dil-ve-edebiyyat-muellimliyi-b.pdf
11. Filologiya fakültəsi – Fakültənin tarixi. Azərbaycan Dövlət Pedaqoji Universiteti. (2023). https://adu.edu.az/az/education/bakalavr/filologiya-fakultesi/fakt/
12. 050101- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi. Naxçıvan Dövlət Universiteti. (2023). https://ndu.edu.az/public/wp-content/uploads/fakulteler/Tarix/Az_dili_edebiyyat.pdf
13. Hargreaves, A. (2020). Teaching in the Knowledge Society: Education in the Age of Insecurity. Teachers College Press.
14. International Education Standards. (2021). Global Standards for Teacher Education. Retrieved from globalstandards.org.
15. OECD. (2021). Innovating Education and Educating for Innovation: The Power of Digital Technologies and Skills. OECD Publishing.
16. Shulman, L. S. (2022). The Wisdom of Practice: Essays on Teaching, Learning, and Learning to Teach. Jossey-Bass.
17. Smith, J., & Taylor, R. (2021). Modular Learning Frameworks in Teacher Education. Routledge.
18. UNESCO. (2022). Transforming Teacher Education: A Global Perspective. Retrieved from unesco.org.



**Xülasə**

Məqalədə beynəlxalq təcrübədə dil və ədəbiyyat müəllimlərinin hazırlanmasında tətbiq olunan mütərəqqi yanaşmalar və onların Azərbaycanın təhsil sisteminə uyğunlaşdırılması imkanları araşdırılmışdır. Fərqli ölkələrin təhsil proqramları və onların uğurlu modelləri təhlil edilmiş, Azərbaycanın mövcud təhsil proqramlarının güclü və zəif tərəfləri müəyyən edilmişdir.

Məqalə beynəlxalq təcrübədəki effektiv metodların yerli təhsil sisteminə inteqrasiyası üçün təkliflər irəli sürür. Modul əsaslı proqramların tətbiqi, müasir texnologiyaların inteqrasiyası və davamlı peşəkar inkişaf proqramlarının yaradılması . Nəticələr Azərbaycan təhsil sisteminin modernləşdirilməsinə və beynəlxalq standartlara uyğunlaşdırılmasına dəstək ola bilər.


**TRAINING OF LANGUAGE AND LITERATURE TEACHERS IN INTERNATIONAL PRACTICE: NEW APPROACHES THAT CAN BE IMPLEMENTED IN AZERBAIJAN**


**Summary**

The article examines the progressive approaches used in international practice in the training of language and literature teachers and the possibilities of their adaptation to the Azerbaijani education system. Educational programs of different countries and their successful models are analyzed, and the strengths and weaknesses of the existing educational programs of Azerbaijan are identified.

The article puts forward proposals for the integration of effective methods from international practice into the local education system. The introduction of module-based programs, the integration of modern technologies, and the creation of continuous professional development programs are among these recommendations. The results can support the modernization of the Azerbaijani education system and its adaptation to international standards.